# ƏDƏBİYYATŞÜNASLIQ

*UOT 82-32*

## MİRZƏ İBRAHİMOV – 100
## KİÇİK JANRIN İMKANLARI

**İ.S.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***ifrataliyeva@box.az***

*Azərbaycanın xalq yazıcısı Mirzə İbrahimov zəngin və əhatəli yaradıcılıq yolu keçmişdir. Yaradıcılıqa şeirlə başlayan gənc yazıcı daha sonralar qələməni nəsr sahəsində sınamışdır və biri digərindən maraqlı hekayə, povest və romanlar ilə oxucu kütləsinin rəğbətini qazanmışdır. Məqalədə yazıcı Mirzə İbrahimovun müxtəlif illərdə qələmə aldığı hekayələr mövzu, ideya və janr xüsusiyyətlərinə görə təhlilə cəlb olunmuşdur.*

**Açar sözlər:** hekayə, sənətkar, konflikt, dramaturq, *janr,* böyük imkanlar

... Azərbaycanın xalq yazıçısı, dramaturq, ədəbiyyatşünas və publisist, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Mirzə Əjdər oğlu İbrahimovun 100 illiyi tamam olur. XX əsr ədəbiyyatımızın tanınmış simalarından biri kimi onun meydana gətirdiyi əsərlərdə dövrün və zamanın dolğun mənzərəsi yaradılmışdır (1).

"Azərbaycan xalqının dövlətçilik və ədəbi bədii fikir tarixində müstəsna xidmətləri olan Mirzə İbrahimov çoxşaxəli fəaliyyətində" irihəcmli əsərləri ilə yanaşı, dərin məzmunlu hekayələri də xüsusi yer tutur (2).

Əlli ildən artıq yaradıcılıq yolu keçən, akademik Mirzə İbrahimovun ədəbi fəaliyyəti çağdaş ədəbiyyatımızın yaranıb inkişaf etməsi prosesi ilə bağlıdır. Görkəmli yazıçının ədəbi-bədii fəaliyyətindən bəhs etmək eyni zamanda müasir Azərbaycan ədəbiyyatının bir sıra mühüm yaradıcılıq məsələlərindən, onun mürəkkəb, enişli-yoxuşlu inkişaf yolundan, bugünkü ədəbi təcrübə üçün lazım olan bəzi nəzəri-estetik problemlərindən danışmaq deməkdir. Ədibin zəngin ədəbi irsini bir daha araşdırarkən məlum olur ki, o, həmişə müasir həyatla bağlı olmuş, dövrün səciyyəvi hadisələrini geniş planda əks etdirmişdir. Bu cəhətdən yazıçı Mirzə İbrahimovun hekayələri barədə söz açmağa dəyər. O, ilk hekayələrindən (1935) başlayaraq realist ədəbi ənənələr yolu ilə getmişdir. Bu hekayələr bədii cəhətdən kamil sənət nümunələri olmasa da, cavan yazıçının yaradıcılıq imkanlarını hələ lazımınca üzə çıxara bilməsə

də sosializim cəmiyyətinin keçirdiyi tarixi-ictimai prosesi, yeniliyi onun mahiyyətinin dərk olunması baxımından əhəmiyyətli idi. Bədii ləyaqətindən, estetik keyfiyyətindən asılı olmayaraq yazıçı ilk hekayələrində yeniliyi görməyə, onun inqilabi mahiyyətini duymağa, uşaqlıqdan yaxşı tanış olduğu fəhlə mühitinə, neftçilərin gərgin və yaradıcı əməyinə nüfuz etməyə çalışır.

"Həyat" pyesinə qədər ədəbi mühitdə onu oçerk və şeirləri yox, "Zəhra", "Mələk", "Qaçaq", "Qorxulu səs", "Sənət aşiqləri", "Balta" kimi hekayələri tanıdır. Çünki bu hekayələrdə yazıçının yaradıcılıq ideyalarının estetik baxış və həyatı idrak üsulunun rüşeymləri, realizmi, xalqa bağlılıq, gerçəkliyə sədaqəti, bədii ümumiləşdirməyə meyli özünü göstərir. Artıq o, "İran qızı", "Həyat yolu", "Etibar və *M*əntiq Həsənoviç"dən püxtələşmiş, orjinal hekayə ustası kimi tanınır. Bu, Mirzə İbrahimovun qəhrəmanlarını həyatda, zəhmət adamlarının arasında axtarmasından, əsrin baş konfliktinin-sinfi mübarizənin mahiyyətini hərtərəfli öyrənməyə çalışmasından, dövrün həqiqətini sənətə gətirməyə cəhd etməsindən irəli gəlirdi.

1932-ci ildə M.İbrahimov deyirdi: "Sənətkar... yüksək fikri səviyyədə durmalıdır. Yazıçı varlıqdakı təzadları düzgün anlamaq hərtərəfli düşünmək və bütün mürəkkəb hadisələrə şüurlu olaraq yanaşmağı bacarmalıdır. Qəhrəmanları... həyatdan almaq həqiqi xarakterləri axtarıb tapmaq lazımdır. Bu isə ancaq və ancaq həyatı davamlı olaraq öyrənməklə əldə edilə bilər" (5, 86).

Buna görə də, Mirzə İbrahimov hekayə yaradıcılığına "Zəhra", "Mələk"lə başlayır, yeni quruluşun məişətə, etik və sosial həyata gətirdiyi yeniliyi göstərir, mənalandırır.

İlk hekayələrindən Mirzə İbrahimov cəmiyyətdəki gedən dəyişikliklərə öz əməli fəaliyyətində nümayiş etdirən insanların fəaliyyətini diqqətlə izləyir, onların mübarizələrindəki təfərrüatı nəzərdən qaçırmır. Daha çox ictimai-siyasi səciyyə daşıyan mətləbləri təsvir edir. Doğrudur, "İran qızı" və "Anama deyərəm ha", "Qorxulu səs", "Sənət aşiqləri" məhəbbət mövzusundadır. Amma Firuzənin Bədəli, Tabanın Adili sevməsi, ("Qorxulu səs") "müəllif üçün məqsəd deyil, ideyanı, sinfi düşməni simasının xalq əmlakına düşmən münasibətini açmaq üçün vasitədir. "Sənət aşiqləri"nin bəzi epizot və detallarında həyatın, yeni insanın nəfəsi duyulur. Umudun qəzetin şöbə müdiri ilə görüşü, şeir oxuması, *G*övhərin ruhi sarsıntıları Leylanın hisslərini cilovlaya bilməməsi, təbii və həyatı səhifələrdir. Lakin müəllifin gəncliyi və təcrübəsizliyi hekayələrin bəzisində, eləcə də "Sənət aşiqləri"nda özünü göstərmişdir.

1930-cu illər Azərbaycan kəndi üçün ən mürəkkəb, ən zidiyyətli, mübarizələrlə dolu olan bir dövr idi. Kollektiv təsərrüfat uğrunda gedən mübarizə və onun geniş planda bədii təsviri bu dövrün ədəbiyyatında aparıcı rola malik idi (10, 96). Kolxoz quruluşu zamanı meydana çıxan çətinliklərə Əli Vəliyevin "Yeni dünya", "Nənəmin cəhrəsi", Sabit Rəhmanın "Dizi yamaqlı", Mehdi Hüseynin "Əlli iki", Mirzə İbrahimovun "Qaçaq" və "Yol ayrıcında" hekayələrində də daha geniş və bütün zidiyyəti ilə təsvir edilir. "Yol ayrıcında" hekayəsində kollektivləşməyə yenicə qədəm qoyan kəndin

dəyişməsi, kəndlinin şüurunda əmələ gələn yenilik, onun fərdi hisslərdən azad olması, köhnəliyə müqaviməti göstərilir. Münaqişə ailədə baş verir, getdikcə məişət çərçivəsindən çıxır, ictimai məna alır: mühitin, yeniliyin təsiri ata ilə oğulu üz-üzə qoyur. Yazıçı mühafizəkar, fərdiyyətçi, dindar ailəsini, arzusuna qurban verən, ata ilə yeniliyə, kollektiv təsərrüfata bağlı olan Rüstəmin daxili aləmini mübarizədə açır.

Rüstəm bitkin surətdir. Onun Qəməri sevməsi, atasının səviyyəsinə enməməsi, yeniliyə meyli təbiətindən, düşüncələrinin, məntiqindən doğur.

"Yol ayrıcında" hekayəsində dramatizim, psixoloji səhnələr güclüdür. Rüstəmin xəstəxanada anası ilə görüşü, sərhəddə tanımadığı adamla "Ölüm-dirim mübarizəsinə" girişməsi, məhkəmədə atası ilə söhbətə təşəbbüs göstərməsi təsirli epizodlardır. Lakin müəllif məhəbbət səhnələrinin təsvirində ölçü gözləməmiş, ciddi səbəb olmadan Qəmərin Rüstəmi atmasına, Tofiqlə evlənməsinə, ölüm ayağında olan gəncə "nəzakət xatirinə" üzrxahlıq məktubu qoyub getməsinə məntiqi zəmin hazırlamamışdır. Finalda Rüstəmin Rəxşəndəni sevməsi, sonra onun ərli olduğunu bilib özünü xudpəsəndlikdə təqsirləndirməsi də sünidir.

Mirzə İbrahimov "Üfüqlər qızaranda", "Etibar" və "Məntiq Həsənoviç"də sxematizm və sünilikdən qaçır, gücü reallığa, hekayələrin bədii təsirliyinə, idraki-tərbiyəvi əhəmiyyətinə verir. Eyni zamanda 30-cu illərdən o, müasirliyi daha dərindən duymağa çalışır, bir yazıçı və nəzəriyyəçi kimi öz yolunu tapır, bir-birinin ardınca müasir və klassik Azərbaycan ədəbiyyatından, ədəbi metod və cərəyanlardan yazır; sənət və sənətkar qarşısında ciddi tələblər qoyur; bədii əsərin gözəlliyini həyatiliyində, xəlqilik və reallığında görürdü.

Nəzəri hazırlıq zamanın nəbzini tuta bilmək, ədəbi təcrübə və vərdişin artması Mirzə İbrahimovun yaradıcılığına, o cümlədən "İran qızı", "Üfüqlər qızaranda", "Etibar", "Məntiq Həsənoviç"ə ciddi təsir göstərirdi. Təsviri sadəlik və aydınlığı, realizmin dərinliyi, müşahidənin güclülüyü, surətlərin fərdiləşdirilməsi bu hekayələrin müvəffəqiyyətini şərtləndirdi. Təsadüfi deyildir ki, məhz bu əsərlərin müvəffəqiyyətindən sonra görkəmli alim M. Cəfər məqalələrinin birində "Mirzə İbrahimovu püxtələşmiş orijinal hekayə ustası adlandırırdı (6, 19).

Doğrudan da, "Üfüqlər qızaranda" məzmunlu, kamil mündərəcəli hekayədir. Yazıçı burda Bakı neft fəhləsinin inqilabi şüura yiyələnməsini, ölkədə sinfi ziddiyyətlər dərinləşdikcə azadlığın mənalı tələbata çevrilməsini canlandırır. Canlı inqilabi mübarizənin qələbəsinə inam şüara çevrilir, onu lövhələrdə, surətlər arasındakı münasibətlərdə açır.

M.İbrahimov ilk hekayələrinin çoxunda klassik Azərbaycan ədəbiyyatının yaradıcılıq təcrübəsinə əsaslanaraq adi həyat hadisələri fonunda "kiçik" adamları canlandırırsa, 1940-cı ildən etibarən həm də Çexov, Qoqol, Şedrin və Qorki əməllərindən bəhrələndiyini görürük.

Yazıçının ilk hekayələrində diqqəti cəlb edən əsas amillərdən biri də onun qələmə aldığı əsərlərində ifşa üsulunun təzəliyi və kəsərli olmasıdır. Bu

cəhətdən müəllifin ilk yaradıcılığının məhsulu olan "Məntiq Həsənoviç", "Etibar" daha çox diqqəti cəlb edir.

Hər iki hekayədə yazıçı ailə və məişət məsələsinə toxunmuşdur. İlk hekayələrinə nisbətən "Etibar" hekayəsində müəllif daha təsirli şəkildə müəllimə Dilarə və gənc elmi işçi Həsən surətlərinin yeni ailə münasibətlərini əks etdirmişdir. Bu gənclərin qurduğu yeni ailədə sədaqət, səmimiyyət, yüksək mədəniyyət və mehribanlıq hökm sürür. "Ümumiyyətlə, Mirzə İbrahimovun ilk hekayələrində gənc nəslin tərbiyəsinə, cəmiyyətin bir hüceyrəsi olan ailənin sağlamlığına xüsusi fikir verdiyini, cəmiyyətin aparıcı qüvvəsi olan gənclərin ümid və inamını görürük" (3, 436).

Məntiq Həsənoviç orijinal tipdir. O, Çexovun Belikovunu xatırlatsa da, milli keyfiyyətləri, özünəməxsus cizgilər ilə fərqlənir. O zahirən durğun və hərəkətsizdir. Daxilən isə hərəkət və fəaliyyətdə, təlaş və həyəcandadır. Məntiq Həsənoviç ötən əsrin yox, kollektivləşmə illərinin Belikovudur. O, elə bil ki, Belikovun, əcdadının həyat yolunu öyrənmiş, söz-söhbətini, iş üsulunu "müasirləşdirmişdir". Məntiq, Vətəninin, Azərbaycanın oğludur, ancaq daxilən şikəstdir. Bu xəstəlik onun sarsıntısını və həyəcanını artırır, həyatda ölümə aparan yolu seçməyə məcbur edir.

Yaradıcılığının ilk illərindən Mirzə İbrahimovu dövrün vacib, siyasi səciyyə daşıyan məsələlər maraqlandırmışdır. O hekayələrinin bir qismini beynəlxalq imperializmin ifşasına, xalqların o cümlədən İran xalqlarının inqilabi mübarizəsinə, milli-azadlıq hərəkatına həsr etmişdir. Yazıçı mövzusunu Arazın o tayında yaşayan azərbaycanlıların həyatından aldığı kiçik janrlı qələm məhsullarını "*C*ənub hekayələri" adlandırmışdır. Cənubi Azərbaycanda 1942-1946-cı illərdə gedən ümumxalq hərəkatı bu hekayələrdə öz bədii əksini tapmışdır. "12 dekabr", "Tonqal başında", "Azad", "Salam sənə Rusya" və "İztirabın sonu" adlı hekayələri bu mövzuya həsr edilmişdir.

"Cənub hekayələri" yazıçının gördüyü, şahidi olduğu real və canlı hadisələrin məhsuludur. Orijinal kompozisiyaya, dinamik süjet xəttinə, gözəl bədii təsvir və ifadə vasitələrinə, kamil məndərəcəyə malik olan bu hekayələrin ideyası arasında ciddi yaxınlıq nəzərə çarpır. Çünki müəllif burada ümumi bir amilin, milli-azadlıq hərəkatının, xalq mübarizəsinin Cənubi Azərbaycanda əmələ gətirdiyi təbəddülatın maddi və mənəvi intibahının təsvirini verir, ayrı-ayrı hekayələrdə isə o, demokratik hərəkatın rəngarəng təzahürlərini, inqilabın ölkəyə gətirdiyi yeniliyi canlandırır.

Hekayələrin hər biri ayrılıqda özünəməxsus bədii ümumiləşdirmə xüsusiyyətlərinə malik olmaqla bərabər əhatə etdiyi hadisələrə görə Cənubi Azərbaycanda baş vermiş demokratik hərəkatın müəyyən bir mərhələsi ilə əlaqələndirilmişdir.

"Azad" (1946) hekayəsində 1945-ci ilin axırlarında Azərbaycan demokratlarının mübarizəsi təsvir olunmuşdur. "12 dekabr (1946) Cənubi Azərbaycan xalqının mübarizə tarixində ən fərəhli və unudulmaz bir gün olan 1945-ci il 12 dekabrdan, bu tarixi gündə birinci Azərbaycan məclisinin açılmasından,

Azərbaycanda muxtariyyət elan edilməsindən və demokrat firqəsinin başçısı Pişəvərinin rəhbərliyi ilə Milli hökumətin təşkilindən bəhs olunmuşdur. “Tonqal başında” (1947) hekayəsində Milli hökumətin təşkilindən sonrakı günlər Təbrizin müdafiəsində iştirak edən Marağa fədailərinin həyatı, onların coşğun inqilabi ruh yüksəkliyindən bəhs olunmuşdur.

Adi həyat həqiqətləri fonunda ictimai-siyasi, bəşəri mətləblərin açılması, təbiət təsvirlərinin canlı lövhə təsiri bağışlaması, lakonizm, məzmun dərinliyi, fikir dəqiqliyi və yeniliyi, irad, və söz sərrastlığı “Cənub hekayələri”nin səciyyəvi xüsusiyyətləridir.

Mirzə İbrahimov “Silsilə”də yersiz təfərrüata varmır, hadisələri sıxır, eyhan və dastanlardan bol-bol istifadə edir. Bu isə hekayələrin bədii dəyərini artırır, onlara güclü dinamika, həyat təravəti gətirir.

“Cənub hekayələrin”də qəhrəmanların mübariz, imperializm və müstəmləkə zülmünə qarşı mübarizə aparan adamların bitkin surəti yaranır. Akademik M.Cəfərin dediyi kimi ümumi və fərdi keyfiyyətləri ilə bərabər “Gələcək gün”də təsvir olunan ehtiraslı inqilab fədailəri ilə birlikdə bu surətlərin hamısı bir yerdə yeni ictimai tipin ilhamla yaradılan müəyyən “silsiləsi” təsirini bağışlayır.

“Cənub hekayələri”ndə fəaliyyətsiz, artıq və yersiz görünən surət yoxdur. Buradakı obrazların çoxu böyük inamlı, bəşəri ideallı insanlardır. Mövqelərindən asılı olmayaraq, onlar ehtirasla milli-azadlıq hərəkatına qoşulur, azadlığı mənəvi-siyasi ehtiyaca çevirdiklərindən ölümdən belə qorxmurlar. Bu keyfiyyət hekayələrdə hərəkəti, dinamikanı gücləndirir, süjet xətlərini enən-qalxan, get-gedə gərginləşən yolla inkişaf etdirir, oxucunu ideya və surətlər aləmində fəal şəxsə çevirir.

“Cənub hekayələri”ndə ictimai-siyasi hadisələr, vacib problemlər təsvir olunur. Bu problemlər tədricən dəyişən vəziyyət və əhvalatların, əhvali-ruhiyyələrin gedişində həll edilir, ailə-məişət səhnələri, sevgi hissləri bədii vasitəyə çevrilir. Yazıçı psixoloji təsvirlərdən qaçır, mürəkkəb xarakterlər yaratmır, bədii konflikti ictimai-siyasi hadisələr axarında inkişaf etdirir. Beləliklə də, “Silsilə”də “qaranlıqdan daha çox qızarmaqda olan dan yerindən, açılmaqda olan səhərdən qaranlıqları əridən ildırımlardan, qalib demokratik qüvvələrdən” bəhs olunur (7).

Yeni şəraitdə Cənubi Azərbaycan zəhmətkeşlərinin inqilabi şüurunun yüksəlməsi “Cənub hekayələri”ndə əsas yer tutur. Müəllif gənc inqilabçı nəslin mənəviyyatını və azadlıq uğurunda mübarizəsini əks etdirməyə xüsusi fikir verir. Azad, Fərda, Rəhim, Qəhrəman, Azər, Reyhan, Ruxsara, Məlusə -20-25 yaşlı bu gənc oğlanlarla qızlar «Cənub hekayələri»nin əsas qəhramanlarıdır. Yaşlarına məxsus coşqun romantik bir əhvali-ruhiyyə, azad fikirlilik və vətənpərvərlik onların başlıca sifətləridir. Bu surətlər vastəsilə müəllif Cənubi Azərbaycanda yetişən və əvvəlki inqilabi nəsillərə görə özlərinin daha yüksək şüur və mədəniyyətləri ilə fərqlənən tamamilə yeni, gənc inqilabçı nəsillə oxucunu tanış edir.

“Cənub hekayələri”ndə ziyalı, gənc azərbaycanlı qızların inqilabı da təsvir edilmişdir. Bu qızlar ana laylası ilə tərbiyələnmiş, ana vətənin dərdini, ehtiyaclarını düşünə-düşünə kamala çatmışlar. Oğlanlarda olan coşğun romantiklik, inqilabi əhvali-ruhiyyə qızlarda daha güclüdür. Bu yeniyetmə qızlar tarixi qadın qəhrəmanlarından olan *Q*ürrətül-Eyn, Tahirə və Janna d Ark kimi öz həyatlarını vətənin və xalqın istiqlaliyyəti uğurunda qurban verməyə hazırlaşırlar. Moskvanın qəhrəmancasına müdafiəsində rus qızlarının göstərdiyi fədakarlıq onları xüsusilə ruhlandırır. “Salam sənə, Rusiya” hekayəsində Reyhan və Ruxsara Moskvaya getmək, bu böyük şəhərin müdafiəsində rus qızları ilə çiyin-çiyinə iştirak etmək öz vətənlərinin səadətini Moskvada qorumaq arzusunda olduqlarını komandanlığa bildirirlər. Yeni inqilabi şərait onlarda möhkəm və sarsılmaz bir siyasi şüur əmələ gətirmişdir. Gənc Ruxsara rəfiqəsi Reyhanla birləşərək almanpərəst əmisi Hatəm xanın əksinqilabi işlərini ifşa edir, əmisinin müdafiə etdiyi və evində gizlətdiyi alman casusu Fon Rixterin cinayətlərini komandanlığa xəbər verir.

Bu gənc qızlar öz dost-düşmənlərini çox gözəl tanıyırlar. “On iki dekabr” hekayəsində onlardan biri xarici imperialist dövlətlərinin xəyanətindən danışaraq – “onlar Şərqin üstünü bir qara bulud kimi kəsmişlər” deyirlər. Başının üstündə bir cəllad bıçağı kimi durmuşlar. Nə qədər ki, yer üzündə imperializimin bu qara və heybətli əli var, Şərqə səadət yoxdur... ” (6, 91).

“Cənub hekayələri”ndə müəllifin yaratdığı bu gənc vətənpərvər qəhrəmanlar onların zəngin mənəviyyatı həqiqətə tam uyğun olaraq Cənubi Azərbaycanda şüurlarda və ürəklərdə gündən-günə möhkəmlənən gözəl bir fikir baharından bizə xəbər verir. Bu gənc qəhrəmanlarda fikir, şüur, hiss, əxlaq, sevgi və ailə münasibətləri, həyata baxış – bir sözlə, hər şey yenidir. Onlar yeni doğan qüvvələrdir. Cənubi Azərbaycanda gələcəyi olan yeni fikirli, yeni duyğulu və yeni biçimli inqilabçı nəslin nümayəndələridir.

“Silsilə”nin həyat materialı yazıçını, çağırış və siyasi xülasələrə, təfərrüat və haşiyələrə aparır. Belə bir keyfiyyət isə Mirzə İbrahimovun həyatı inikas üsulunun dəyişməsi, fərdi üslubunun tamam təzələnmə və yeniləşməsi demək deyildir. Ümumiyyətlə, hər hansı yazıçının, o cümlədən də Mirzə İbrahimovun mövzuları dəyişdikcə, dərketmə və canlandırma üsulu təzələndikcə üslubu yenidən yaranmır. Əgər hər əsərdə yeni üslub meydana çıxsaydı, onda yazıçının fərdi üslubundan söhbət açmağa ehtiyac qalmazdı. Demək Mirzə İbrahimov “Cənub hekayələri”ndə yeni üslub yaratmamış, fərdi üslubunu milli dilin ənənələri, özünün ilk yaradıcılıq vərdiş və təcrübəsi əsasında təkmilləşdirmiş, üslubun ünsürləri arasındakı vəhdəti daha da möhkəmlətmiş, işlətdiyi sözlərin bütün məna imkanlarını işə salmışdır: “Mən artıq nə parlaq və cazibədar ulduzları görür, nə də suyun ahəngdar şırıltısını eşidirəm. Xəyal məni uzaqlara, dünya faciəsinin dəhşətli bir səhnəsi oyanan Moskvaya çəkib aparmışdı...” (6, 46).

M.İbrahimovun "Cənub hekayələri" bütün əsərlərindən fərqlənir. Bu hekayələr həm də vətəndaşlıq pafosunun dərinliyi, həyata, gerçəkliyə, təsvir olunan surətlərə milli və xəlqi yanaşmanın üstünlüyü ilə seçilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Mirzə İbrahimovun 100 illik yubileyinin keçirilməsi haqqında" 19 iyul 2011-ci il tarixli Sərəncamından. Bakı, "Ədəbiyyat" qəz., 2011, 25 noyabr.
2. Alışanov Ş. Mirzə İbrahimov və XX əsr. Azərbaycan ədəbi-nəzəri fikri. Bakı, "Ədəbiyyat" qəz., 2011, 25 noyabr.
3. Azərbaycan ədəbiyyatı tarixi 3 cilddə. III c., Bakı: Maarif, 1957, 557 s.
4. Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif, 1966, 434 s.
5. M. İbrahimov sənət və sənətkarlıq M.İbrahimov. Seçilmiş əsərləri. 10 cilddə, X c., Bakı: Yazıçı, 1983, 506 s.
6. Cəfər M. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı: Yazıçı, 1987, 410 s.
7. Cəfər M. "Azərbaycan" jurnalı, 1986, №4, 190 s.
8. İbrahimov M. Seçilmiş əsərləri. 10 cilldə, III c., Bakı: Yazıçı, 1986, 316 s
9. İbrahimov M. Seçilmiş əsərləri. 10 cilldə, IV c., Bakı: Yazıçı, 1987, 374 s.
10. Tağıyev Abbas. Mirzə İbrahimov. Bakı: Yazıçı, 1982, 206 s.


## БОЛЬШИЕ ВОЗМОЖНОСТИ МАЛЕНЬКОГО ЖАНРА


**И.С.АЛИЕВА**


## РЕЗЮМЕ


Один из видных деятелей современной азербайджанской литературы М.Ибрагимов свыше пятидесяти лет прошел богатый творческий путь.

Народный писатель М.Ибрагимов своё творчество начал стихами, но позже стал знаменитым прозаиком.

В творчестве М.Ибрагимова особое место занимает рассказы. Во всех его рассказах имеются достаточно жизненных материалов.

В настоящей статье анализированны идеи, формы содержания рассказов написанных в разные годы его творчества.



**Ключевые слова:** рассказ, ремесленник, конфликт, драматург, жанр, большие возможности


## GREAT POSSIBILITİES OF THE LITTLE GENRE


***İ.S.ALİYEVA***


## SUMMARY


One of the prominent representatives of the Azerbaijani prose, the national writer Mirza Ibrahimov passed a very rich creativity since 1929. The writer's verses later became famous for his prose.

The article examines the stories by the writer written in different years according to their themes, ideas and genres.



***Key words:*** *story, craftman, conflict,* playwright*, genre, great opportunities*